**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

İlk öncə Sizi və Auditorlar Palatasının bütün kollektivini bu tarixi yubiley – Palatanın yaradılmasının 25 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm.

Ümummilli lider tərəfindən imzalanan "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq fəaliyyətə başlamış Auditorlar Palatası ötən dövr ərzində ölkə iqtisadiyyatına mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən iqtisadi strategiyanın və dayanıqlı inkişaf konsepsiyasının əsas istiqamətlərindən biri də kölgə iqtisadiyyatının aradan qaldırılması, fiskal intizamın gücləndirilməsi, şəffaflığın və hesabatlılığın artırılması, dövlət vəsaitlərindən qənaətlə, səmərəli və effektiv istifadə olunması, ölkədə sahibkarlıq və investisiya mühitinin daxili və xarici investorlar üçün cəlbediciliyinin təmin edilməsidir.

Bu istiqamətdə həyata keçirilən genişmiqyaslı işlərin demək olar ki, hər birində Auditorlar Palatası yaxından iştirak edir, yeni dövrün tələblərinə uyğun audit xidmətinin qurulması, onun iqtisadi səmərəsinin artırılması, beynəlxalq təcrübədə uğurla tətbiq olunan ən qabaqcıl audit metodlarının ölkəmizdə tətbiq edilməsi istiqamətində əzmlə çalışır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda audit sistemi üzrə təkmil qanunvericilik bazası yaradılmış, milli audit sistemi formalaşmış, auditor xidmətlərinin həcmi və əhatə dairəsi genişlənmiş, şəffaflığın təmin edilməsi və korrupsiyaya qarı mübarizə sahəsində auditin rolu xeyli artmışdır.

Dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin idarə olunmasında korporativ idarəetmə standartlarının tətbiq edilməsi, onların biznes fəaliyyətində effektivliyin yüksəldilməsi, vəsaitlərdən daha effektiv istifadə olunması və maliyyə şəffaflığının təmin edilməsi istiqamətində ölkədə həyata keçirilən tədbirlər Auditorlar Palatasının fəaliyyət dairəisini daha da genişləndirəcəkdir.

Ötən dövr ərzində Auditorlar Palatasının beynəlxalq əlaqələrinin gücləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Belə ki, Palata bu sahədə dünyanın ən mötəbər beynəlxalq audit və mühasibatlıq təşkilatları ilə, digər ölkələrin audit və mühasibatlıq qurumları ilə intensiv əlaqələr qurmuş, təcrübə mübadiləsi aparmışdır.